# "Simurq Liseyi" Təhsil Kompleksi MMC Davamiyyət Siyasəti

**Niyyət Bəyanatı**

Şagirdin təhsildə tam nailiyyət əldə etməsi üçün davamiyyət səviyyəsinin yüksək olması vacibdir.
Biz bütün şagirdlərimizə ən yüksək keyfiyyətli təhsil vermək prinsiplərinə sadiqik və bütün şagirdlərin özlərini dəyərli hiss etdikləri bir mühit yaratmağa çalışırıq.
Valideynlər və şagirdlər məktəbimizin uğurlu olmasında mühüm pay sahibidirlər.
Hər bir şagirdin ona aid olan təhsil əldə etmək hüququ vardır. Valideynlər və müəllimlər bütün şagirdlərin mükəmməl davamiyyətini dəstəkləmək və təşviq etmək məsuliyyətini bölüşürlər.
Bizim borcumuz bütün şagirdlər üçün 100% davamiyyət hədəfinə sistematik şəkildə nail olmağa çalışmaqdır. Hər fürsətdən istifadə edilərək şagirdlərə və onların valideynlərinə davamiyyətin və vaxtında gəlmənin vacibliyi izah ediləcəkdir.
Şagirdlərin təklif olunan tədris imkanlarından tam yararlana bilmələri üçün vacibdir ki, övladınız, qaçılmaz səbəb yoxdursa, dərs buraxmadan hər gün vaxtında məktəbdə olsun.
Məktəbin davamiyyət və vaxtında gəlmə ilə bağlı şagirdlərdə formalaşdırdığı vərdişlər gələcəkdə onların bir parçası olacaqları iş dünyasında hər bir işəgötürənin gözləntilərinə daxildir. Yüksək nailiyyət, həmyaşıdlarla və müəllimlərlə ünsiyyətdə özünə inam və gələcək məqsədlərə çatmaq istəyi yaxşı davamiyyətdən asılıdır.

**Yaxşı davamiyyət vacibdir, çünki:**

- Statistikalar göstərir ki, davamiyyətin 95%-dən aşağı olması ilə zəif nəticələr arasında birbaşa əlaqə var;
- Davamiyyəti yüksək olanlar həm sosial, həm də akademik cəhətdən daha yaxşı irəliləyirlər;
- Davamiyyəti yüksək olanlar məktəbin qaydalarına, dərslərə və dostluqlara daha asan uyğunlaşırlar;
- Davamiyyəti yüksək olanlar üçün öyrənmə daha məmnunedicidir;
- Davamiyyəti yüksək olanlar orta məktəbdən ali təhsil, iş və ya təlimə keçiddə daha uğurlu nəticələr əldə edirlər.

**Yaxşı davamiyyəti təşviq etmək**
Yaxşı davamiyyətin əsası məktəb, valideyn və şagird arasında güclü tərəfdaşlıqdır. Bunun üçün biz:

- Davamiyyətlə bağlı bütün məsələlər üzrə məlumat verəcəyik;
- Uşağınızın məktəbdəki nəticələri, davamiyyət və vaxtında gəlmə göstəriciləri barədə sizə hesabat təqdim edəcəyik;
- Yaxşı davamiyyət nümunələrini fərdi və sinif uğurları kimi nümayiş etdirərək qeyd edəcəyik;
- Yaxşı və ya yaxşılaşan davamiyyətə görə sinif yarışları, sertifikatlar və tədbirlərlə mükafatlandıracağıq;
- Məktəb və siniflər üçün davamiyyət hədəfləri müəyyənləşdirib onları məktəbdə nümayiş etdirəcəyik.

**Məqsəd və Əhatə dairəsi**
Bu siyasətin məqsədi müntəzəm davamiyyətin akademik nailiyyət, sosial inteqrasiya və ümumi təhsil təcrübəsində əhəmiyyətini vurğulamaqdır.
Siyasət, tələbələr arasında məsuliyyət, dəqiqlik və fəallıq mədəniyyətini təşviq etməklə yanaşı, davamiyyətsizlik hallarının aradan qaldırılması üçün çərçivə təmin etməyi hədəfləyir.

## Vəzifələr və Məsuliyyətlər

**Məktəb idarəsinin məsuliyyətləri:**
İdarə heyətinin məsul üzvü məktəbdə davamiyyətin artırılması və yaxşılaşdırılması üzrə işi nəzarətdə saxlayacaq, istiqamətləndirəcək və əlaqələndirəcək, eyni zamanda davamiyyət siyasətinin bütün məktəbdə ardıcıl tətbiqini təmin edəcək.
Həmin məsul şəxs davamiyyətin düzgün qeydiyyata alınmasını və təhlil edilməsini təmin edəcəkdir. O, davamiyyət problemlərinin erkən mərhələdə müəyyən edilməsini və çətinliklərin aradan qaldırılması üçün dəstəyin göstərilməsini təmin edəcək.
Əgər davamiyyətsizlik faktı tez tez təkrarlanırsa və ya uzun müddətlidirsə (xəstəlik halları istisna olmaqla), valideynlərlə uşağın yoxluğunun səbəbi barədə söhbət aparılmalı və davamiyyətsizliyin minimuma endirilməsinə təşviq edilməlidir. Valideyn tərəfindən təqdim edilən hər qeyd və ya izahat şagirdin davamiyyətsizliyini hər zaman əsaslandırmış hesab edilmir. Şagirdin tədris prosesində iştirak etməməməsinin əsaslı sayılıb-sayılmaması barədə qərar məktəb tərəfindən veriləcəkdir.

- Bütün şagirdlərin dəqiq qeydiyyata alınmasını təmin etmək;
- Uyğun hallarda şagirdlər arasında yaxşı davamiyyəti təşviq etmək və mükafatlandırmaq;
- Davamiyyət və vaxtında gəlmə məsələlərində İdarə heyəti ilə əlaqədə olmaq;

- Şagirdin davamiyyətsizliyinə səbəb ola biləcək narahatlıq və ya problemləri bildirmək;
- Məktəbə qayıtdıqdan sonra şagirdləri davamiyyətsizlik sonrası tədris prosesinə yenidən cəlb etmək.

**Şagirdlərin məsuliyyətləri:**

- Xəstə olmadıqları və ya üzrlü səbəbləri olmadığı halda hər gün məktəbə gəlmək;
- Məktəbə vaxtında gəlmək;
- Qeydiyyat və dərslərə vaxtında qatılmaq;
- Əgər gecikir və ya məktəbi dərs saatları bitmədən tərk etməli olurlarsa, qəbul masasına müraciət edib qeydiyyatdan keçmək.

**Valideynlərin/və ya qəyyumların məsuliyyətləri:**

Valideynlər:

- Dərs buraxmanın ilk günündə məktəbi məlumatlandırmalıdırlar;
- Planlaşdırılmış davamiyyətsizlik halını əvvəlcədən sinif rəhbəri ilə müzakirə etməlidirlər;
- Uşaqlarının hər il 100% davamiyyətinə dəstək olmalıdırlar;
- İştirak etməmək halını telefon, mesaj və ya məktub vasitəsilə əsaslandırmalıdırlar;
- Təcili olmayan tibbi və stomatoloji görüşləri məktəbdənkənar vaxtlara salmalıdırlar;
- Yalnız istisna hallarda məktəbdən icazə istəməlidirlər.

## 1. Davamiyyətin qeydiyyatı

Dərsdən sonra keçirilən fəaliyyətlərdə və əlavə dərslərdə iştirak edən şagirdlərin davamiyyəti qeyd olunacaq.

Məktəb idarəsi və qəbul masası gec qalan şagirdlərin siyahılarını bir-biri ilə paylaşmalıdır.

## 2. Gecikmə / Vaxtında gəlmə

Vaxtında gəlmək vacibdir. Tövsiyə olunur ki, şagirdlər dərslərin başlamasından ən azı 15 dəqiqə əvvəl məktəbdə olsunlar.

- Kampusdan asılı olaraq dərs gününün başlanma vaxtı fərqli ola bilər.
- Qeydiyyat bitdikdən sonra gələnlər həmin gün icazəsiz iştirak etməmiş kimi qeyd ediləcəklər;
- 15 dəqiqədən çox gecikmə halı ikinci dəfə baş verərsə şagird xəbərdarlıq alacaq;
- Yaş qrupundan asılı olaraq davamiyyətsizliyə görə görüləcək tədbirlərə məktəbdən sonra cəza və ya bal azaldılması daxil ola bilər.

Əgər şagird həkim qəbul saatları ilə bağlı gecikirsə, bu, əsaslandırılmış iştirak etməmə kimi qeyd ediləcəkdir.

Tövsiyə olunur ki, həkim və stomatoloq görüş saatları mümkün qədər məktəbdənkənar saatlara və ya tətil dövrünə planlaşdırılsın.

**Monitorinq və İcra**

Simurq Liseyinin rəhbərliyi davamiyyət qeydlərini mütəmadi izləyəcək və problemlərin həlli üçün vaxtında müdaxilə edəcək. Müəllimlər və məktəb heyəti şagirdlərin davamiyyətinin sabit saxlanılması məqsədi ilə valideynlərlə sıx əməkdaşlıq edəcəklər.

**Baxış və Yenilənmə**

Bu siyasət dövri olaraq nəzərdən keçiriləcəkdir ki, onun effektivliyi və aktuallığı təmin olunsun. İştirakçı tərəflərin rəyi, dəyişən şərait və təhsil üzrə ən yaxşı təcrübələr nəzərə alınmaqla zəruri düzəlişlər ediləcəkdir.

**"Simurq Liseyi" Təhsil Kompleksi MMC-nin Baş İcraçı Direktoru**

**Tural Abasquliyev**

**İmza**

AZƏRBAYCAN RESPUBLİKASI «SİMURQ LİSEYİ TƏHSİL KOMPLEKSİ» Məhdud Məsuliyyətli Cəmiyyəti AZERBAIJAN REPUBLIC